Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 195 (7922) BAZAR, 2 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Naxçıvanda təməli qoyulan xilaskarlıq missiyası



**1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi istiqlal mücadiləsini doğru istiqamətə yönəltdi**

***Ötən əsrin 80-ci illərinin sonundan etibarən Azərbaycan xalqı üzləşdiyi bütün problemlərin yalnız Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanır, təkidlə onun respublika rəhbərliyinə qayıtmasını tələb edirdi. Çünki o illərdə cərəyan edən proseslər, Azərbaycana qarşı Ermənistanın ərazi iddialarının ortaya atılması, İttifaq rəhbərliyinin isə baş verənlərə münasibətdə aşkar şəkildə Ermənistanın mövqeyini dəstəkləməsi göstərirdi ki, Azərbaycana qətiyyətli rəhbər lazımdır. Bu rəhbər isə yalnız Heydər Əliyev ola bilərdi.***



Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilərin keçirilməsi kampaniyası ilə bir vaxta düşdü. Babək rayonunun əməkçiləri ilə görüşdə Heydər Əliyevin 340 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürüldü. Keçirilən seçkilər zamanı Heydər Əliyev həm respublika parlamentinə, həm də Naxçıvan Ali Məclisinə deputat seçildi. Həmin il noyabrın 17-də Naxçıvan Ali Məclisinin I sessiyası keçirildi. Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək Naxçıvan Muxtar Respublikası adlandırılması qərara alındı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda, həmin sessiyada Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MR Ali Soveti formatında "Soveti" ifadəsinin "Məclisi" sözü ilə əvəz edilməsi əslində, tam mənası və məntiqi ilə de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi. Bundan başqa, Naxçıvan MR Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət bayrağı Ali Məclisə gətirilmişdi.

*Ardı 4-cü səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri

# Vladimir PUTİN: "Qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir və bu, strateji tərəfdaşlıqdır"

**Dövlətlərarası münasibətlərin tam dəyərli, çox səmərəli şəkildə inkişaf etdiyini və fəal siyasi dialoq xarakteri daşıdığını deyən Prezident İLHAM ƏLİYEV rusiyalı həmkarı ilə dünənki görüşünün əməkdaşlığa əlavə impuls verəcəyinə əmindir**

**Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları görüşdə çıxış etdilər.

**Rusiya Prezidenti Vladimir PUTİN** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İcazə verin, Sizi Soçidə ürəkdən salamlayım. Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir.

*Ardı 2-ci səh.*





# Mehriban ƏLİYEVA: «Xalqımın xoş diləkləri mənim fəaliyyətimə verilən ən yüksək qiymətdir»

Əziz dostlar!

Doğum günüm münasibətilə çoxlu təbriklər almışam. Ən müxtəlif insanlar mənə səmimi arzularını, ürək sözlərini ünvanlayırlar. Tələbələr və pensiyaçılar, həmvətənlərimiz və xaricdəki dostlarımız mənə məktub yazırlar. Çox təəssüf ki, sizin hər birinizə şəxsən cavab verməyə fiziki baxımdan imkanım yoxdur. Lakin mənə ünvanladığınız səmimi sözlərə, fəaliyyətimə verdiyiniz xoş və yüksək qiymətə görə hamınıza ürəkdən təşəkkür edirəm. Hər bir təbrik mənim üçün dəyərlidir və mənə müsbət enerji verir.

Əziz dostlar!

Biz dinamik inkişaf edən dünyada yaşayırıq. Baş verən bütün dəyişikliklərə baxmayaraq, insanlıq və saflıq, səmimilik və xeyirxahlıq, mərhəmət və sevgi həmişəki kimi başlıca dəyərlər olaraq qalır.

Mən sizin sevginizi və dəstəyinizi həmişə hiss etmişəm. Sizin xoş dilәkləriniz mənim fəaliyyətimə verilən ən yüksək qiymətdir. Buna görə sağ olun. İnanın ki, bu, doğum günü üçün ən yaxşı hədiyyədir.

Əziz dostlar!

Diqqətinizə və səmimi təbriklərinizə görə sizin hamınıza bir daha ürəkdən təşəkkür edirəm.

Sizin hamınıza xoşbəxtlik, cansağlığı, nurlu, sevgi ilə dolu həyat, doğma Azərbaycanımıza sülh, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Mehriban ƏLİYEVA,*
*Azərbaycan Respublikasının*
*Birinci vitse-prezidenti*

# Müstəqil siyasət kursu Azərbaycanın etibarlı tərəfdaş mövqeyini möhkəmləndirib



**Ölkəmiz dünya birliyində sözünü qətiyyətlə deyir, milli maraqlarını prinsipiallıqla qoruyur**

**Sabit və uğurlu inkişafı ilə dünya düzənində özünəməxsus yer tutan Azərbaycan həm də tam müstəqil siyasət yürüdən dövlət kimi tanınır.**

Cənubi Qafqaz regionu və onun ən perspektivli ölkəsi olan Azərbaycan qlobal, regional və regiondan kənar qüvvələrin böyük diqqət mərkəzində saxladığı məkandır. Bu baxımdan, son illərdə ölkəmizin rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Bu gün qlobal və regional səviyyədə geosiyasi gücə çevrilməyə çalışan hər hansı bir dövlət regionun qabaqcıl ölkəsi olan Azərbaycanla mövcud olan münasibətlərini daha da gücləndirməyi prioritet məsələ hesab edir.

## Bərabərhüquqlu, konstruktiv münasibətlər

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirib. Dövlət başçısı Azərbaycanı qüdrətli ölkəyə çevirmək məqsədini sadəcə deklarativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində də mühüm addımlar atır.

Fəaliyyətini daim ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran İlham Əliyev respublikamızın iqtisadi müstəqilliyini də möhkəmləndirib. Tarix sübut edir ki, iqtisadi müstəqilliyini təmin edə bilməyən ölkələr tezliklə hansısa təşkilatlardan, dövlətlərdən aldıqları yardımlara görə forposta çevrilirlər. Bu da həmin ölkələrin tam müstəqil siyasət yürütmələrini konkret olaraq məhdudlaşdırır.

Lakin İlham Əliyevin yaratdığı iqtisadi müstəqillik Azərbaycanı etibarlı tərəfdaşa, böyük nüfuza malik olan bir ölkəyə çevirib. Azərbaycanın həm də bir çox ölkələrlə bərabərhüquqlu, konstruktiv münasibətləri mövcuddur.

## Dünya birliyi üçün açıq ölkəyə çevrilən Azərbaycan

Prezident İlham Əliyevin son 15 il ərzində yürütdüyü uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycan hər keçən gün tərəfdaşlarının sayını artırır və demək olar ki, dünya birliyi üçün açıq ölkəyə çevrilir.

Bu, bir həqiqətdir ki, dövlət başçısı ötən 15 ildə dünya siyasətinə əsaslı təsir imkanları olan ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqelərini gücləndirmək istiqamətində sistemli fəaliyyət göstərir. Dünyanın siyasi liderləri arasında böyük nüfuz qazanmış İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət strategiyasının prioritet istiqamətini nüfuzlu dövlətlərlə və beynəlxalq təşkilatlarla bərabərhüquqlu tərəfdaşlıq, çoxvektorlu əməkdaşlıq təşkil edir.

*Ardı 4-cü səh.*

# "Yaşıl turizm" kənd əhalisi üçün həm də ikinci gəlir mənbəyidir

***Ölkəmizdə turizm mövsümü davam edir. Bununla əlaqədar olaraq Azərbaycanın qərb bölgəsinə üz tutan turistlərin sayı xeyli artıb. İndi onlar bölgənin görməli və tarixi yerləri ilə yanaşı, Azərbaycanın mirvarisi sayılan Göygölə də getmək imkanı əldə ediblər. Göllər tacı Göygöl Milli Parkının turistlər üçün yenidən açıq olması bu yerlərə marağı daha da artırıb. Məhz bunun nəticəsidir ki, son illər Göygöl rayonuna gələn turistlərin sayında artım müşahidə edilir.***





## Göygöl rayonu turizmin inkişafı üçün əlverişli şəraitə malikdir

Göygöl rayonu Azərbaycanın qərbində dağlıq və dağətəyi zonada yerləşir. Ən yüksək nöqtəsi dəniz səviyyəsindən 3724 metr hündürlükdədir. Bənzərsiz təbiəti olmaqla, zəngin florası və faunası var. Rayon şimalda Gəncə və Samuxla, şərqdə Goranboyla, cənubda Kəlbəcərlə, cənub-qərbdə Daşkəsənlə, qərbdə isə Şəmkirlə həmsərhəddir. 27 inzibati ərazi dairəsinin tərkibində 1 şəhər, 5 qəsəbə və 39 kənd mövcuddur. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əhali əsasən heyvandarıq və əkinçiliklə məşğul olur. Məşhur Kəpəz dağı, Göygöl, Maralgöl, Zəligöl, Aynagöl və onlarca böyük və kiçik göllər rayon ərazisində yerləşir. Quşqara, Gəncə və Kürək çayları rayon ərazisindən keçir.

*Ardı 5-ci səh.*

# *Vladimir PUTİN:* “Qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir və bu, strateji tərəfdaşlıqdır”

*Əvvəli 1-ci səh.*

Keçən il qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 34 faiz, hətta 34 faizdən də çox artıb, bu ilin birinci yarısında isə mülki təyinatlı məhsulların satış həcmi 20 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Lakin təbii ki, bizim həmişə danışmağa mövzumuz var. Çox şadam ki, Siz bizim dəvətimizi qəbul edib bu gün Rusiyaya gəlmisiniz. Xoş gəlmisiniz!

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.



İlk növbədə, bizi Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istərdim. Bizim görüşlərimizə həmişə şadam. Sizin qeyd etdiyiniz kimi, biz müntəzəm surətdə görüşürük və bu görüşlər münasibətlərimizə dinamizm gətirir. Bütün sahələrdə əlaqələrimizin inkişaf səviyyəsindən biz də məmnunuq. Münasibətlərimiz tam dəyərli, çox səmərəli şəkildə inkişaf edir, fəal siyasi dialoq xarakteri daşıyır. Siz əmtəə dövriyyəsinin artmasını qeyd etdiniz. Bu da ölkələrimizin iqtisadiyyatlarında müsbət meyillərə dəlalət edir. Bu, həm də onu göstərir ki, iqtisadi əməkdaşlığın böyük potensialı var. Əminəm ki, əmtəə dövriyyəsi qarşıdakı illərdə də artacaq. Biz enerji, nəqliyyat sahələrində əməkdaşlıq edirik.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri, regional problemləri də müzakirə edəcəyik. Bu gündəlik yetərincə genişdir. Əminəm ki, bizim bugünkü görüşümüz münasibətlərimizə əlavə impuls verəcək. Dəvətə görə bir daha təşəkkür edirəm.

## Azərbaycan və Rusiya prezidentlərinin geniş tərkibdə görüşü və işçi naharı

Sentyabrın 1-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü və işçi naharı olub.

*AZƏRTAC*

# Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının yeni prioritet istiqamətləri müəyyənləşdi

Sentyabrın 1-də Soçidə geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, “Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat”ı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzaladılar.





Sonra “Rosneft” Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında “Qoşadaş” blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş”, “Rosneft” Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt”, “Azərbaycanda “QAZ” kommersiya avtomobilləri milli yığma istehsalının inkişafı sahəsində əməkdaşlıq haqqında Saziş”, “Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya” Səhmdar Cəmiyyəti ilə “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi”, “Qazprombank” Səhmdar Cəmiyyəti, “Rusiya İxrac Mərkəzi” Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş”, “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol”, “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum”, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş”, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş”, “Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı” və “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı” imzalandı.

# Azərbaycan-Rusiya münasibətləri bütün sahələr üzrə uğurla inkişaf edir, daim möhkəmlənir

**Vladimir PUTİN:** “Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır”.

**İlham ƏLİYEV:** “Biz son üç ayda üç dəfə görüşmüşük. Müntəzəm əlaqələrimiz bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir”.

**Sentyabrın 1-də sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Rusiya Prezidenti Vladimir Putin bəyanatla çıxış etdi.**



## Prezident Vladimir Putinin bəyanatı

- Hörmətli xanımlar və cənablar.

Yadınızdadırsa, avqustun ortalarında Azərbaycan Prezidenti İlham Əliyevlə Xəzər Sammitində iştirak edirdik. Həmin sammitin yekununa görə Xəzər dənizinin hüquqi statusu ilə bağlı mühüm konvensiya imzalandı. Bu gün isə ölkəmizə səfərə gələn Azərbaycan Respublikasının Prezidentini böyük məmnuniyyətlə qəbul edirik.

Bir qədər əvvəl konstruktiv və işgüzar şəraitdə keçən danışıqlar başa çatdı. Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Əminəm ki, əsas idarələrin rəhbərlərinin və biznes nümayəndələrinin iştirak etdikləri bugünkü danışıqlar bütün Rusiya-Azərbaycan əlaqələri kompleksinin gələcək inkişafına əlavə təkan verəcək. Azərbaycan Prezidenti ilə imzalanan Birgə Bəyanat, həmçinin hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi məhz buna istiqamətlənib. İlk növbədə, əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planını qeyd edirəm. Bu proqram sənədə ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi kimi mühüm məsələlər üzrə belə adlandırılan yol xəritələri daxildir.

İkitərəfli iqtisadi əlaqələrə gəlincə, onlar çox fəal inkişaf edir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar “Qazprom”, “Transneft” və “Lukoyl”dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində kooperasiya dərinləşir.

İlham Heydər oğlu ilə müzakirə etdiyimiz bir neçə uğurlu birgə layihəni xatırladım. Məsələn, “KamAZ” Gəncə avtomobil zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb. Rusiyanın “R-Farm” şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. “Qazprombank” Sumqayıt Kimya-Sənaye Parkının inkişafında iştirak edir. Sərmayənin həcmi təqribən 750 milyon dollar təşkil edir. Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq “Şimal-Cənub nəqliyyat dəhlizi”nin yaradılmasını ən perspektivli layihələrdən biri hesab edirik. Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7 min kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Həm də “Şimal-Cənub dəhlizi”nin xeyli hissəsi Rusiya və Azərbaycan ərazisindən keçəcək. Qeyd edim ki, marşrutun ayrı-ayrı hissələri üzrə iş artıq aparılır. Gələn il ölkələrimiz Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir.

Regionlararası əməkdaşlıq mövzusunu da müzakirə etdik. Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Həm də onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Çərçivə sazişləri bağlayıb. Bu ilin oktyabrında növbəti regionlararası forum keçiriləcək. Bayaq müzakirə etdik ki, bu tədbir Gəncədə planlaşdırılmışdı, amma ola bilər dostlarımız bunu Bakıda təşkil etsinlər.

Mədəniyyət və təhsil sahəsində ikitərəfli əlaqələrin zənginliyini məmnunluqla qeyd etdik. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan minə yaxını Rusiya Federasiyasının Federal büdcəsi hesabına təhsil alır. Hər il Azərbaycan vətəndaşlarına 200-dən çox təqaüd verilir. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumunun iclasları müntəzəm keçirilir. Forumun ilin sonunda Bakıda keçiriləcək növbəti 6-cı iclasına 500-dən çox iştirakçının gələcəyi gözlənilir.

Əlbəttə ki, biz beynəlxalq və regional problemlərlə bağlı fikir mübadiləsi apardıq. Xüsusən, təbii ki, Dağlıq Qarabağ probleminə də toxunduq. Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

Sonda Azərbaycan Prezidentinə, bizim bütün azərbaycanlı dostlarımıza, həmkarlarımıza məzmunlu və məhsuldar danışıqlara görə təşəkkür etmək istərdim. Əminəm ki, əldə olunmuş razılaşmalar Rusiya-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək göstərəcək. Diqqətinizə görə təşəkkür edirəm.

*Ardı 3-cü səh.*

# Azərbaycan-Rusiya münasibətləri bütün sahələr üzrə uğurla inkişaf edir, daim möhkəmlənir

## Prezident İlham Əliyevin bəyanatı

*Əvvəli 2-ci səh.*

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli xanımlar və cənablar.

Vladimir Vladimiroviç, ilk növbədə, Rusiyaya səfərə dəvətə, qonaqpərvərliyə, səmimi qəbula görə Sizə təşəkkürümü bildirmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük. Bu, üçüncü görüşümüzdür. İyunda Moskvada Futbol üzrə Dünya Çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün Soçidə görüşürük. Fürsətdən istifadə edib, Rusiyanı həmin qlobal beynəlxalq tədbiri uğurla keçirməsi, Rusiya yığmasını Dünya Çempionatında parlaq çıxışı münasibətilə bir daha təbrik etmək istərdim.

Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik. Vladimir Vladimiroviç bu gün bu barədə çox ətraflı danışdı.

Qeyd etmək istərdim ki, bizim müzakirə etdiyimiz məsələlər arasında regional təhlükəsizlik məsələləri, ilk növbədə, uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi mühüm yer tutur. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri erməni işğalı altındadır. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya, münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək.

Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik. Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu il də davam edir.

Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Vladimir Vladimiroviç dediyi kimi, çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şərait yaradılmasını gözləyirik. Əlbəttə, bu işdə nəqliyyat layihələri çox mühüm rol oynayır.



Rusiya və Azərbaycan qonşu dövlətlərdir. Bizi həm dəmir yolları, həm avtomobil yolları, həm də çox fəal sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Biz ölkələrimiz, eləcə də qonşularımız üçün yeni nəqliyyat imkanları yaradılması üzrə gələcək addımlarımızı ətraflı müzakirə etdik. Vladimir Vladimiroviç Şimal-Cənub layihəsinin reallaşdırılmasının vacibliyini qeyd etdi. Azərbaycan da öz tərəfindən ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq.

Bu gün neft-qaz sahəsində əməkdaşlığa dair mühüm sənədlər imzalandı. Bu, bizim əməkdaşlığımızın ənənəvi sahəsidir. Çox yaxşı potensial və perspektivlər var. Vladimir Vladimiroviç Azərbaycanda bir sıra mühüm nəqliyyat, infrastruktur, sənaye layihələrinin həyata keçirilməsində Rusiya banklarının fəal iştirakını qeyd etdi. Biz bunu çox alqışlayırıq.

Bu gün biz hərbi-texniki sahədə gələcək əməkdaşlığı da müzakirə etdik. Bu əməkdaşlığın artıq böyük ənənələri var. Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır.



Humanitar sahədə əməkdaşlıq diskussiyalarımızda xüsusi yer tutdu. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlər boyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşırlar. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb fəaliyyət göstərir, Rusiyanın aparıcı universitetlərinin iki filialı mövcuddur. Bu gün biz humanitar, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın möhkəmlənməsinə dair gələcək addımlarımızı müzakirə etdik, o cümlədən idman sahəsində imzalanmış sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq. Başqa sözlə, ölkələrimiz arasında tam dəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır.

Vladimir Vladimiroviç, dəvətə, baş tutmuş fikir mübadiləsinə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Öz növbəmdə, Sizin üçün münasib vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istərdim. Sağ olun.

**Vladimir PUTİN:** Çox sağ olun.

# Səfər başa çatdı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri sentyabrın 1-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Soçi şəhərinin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.

# Vyetnam Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Çan Day Kuanqa

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Vyetnam dostluğu və əməkdaşlığı xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2018-ci il*

# "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1148, № 12, maddə 1549; 2015, № 10, maddə 1141; 2016, № 6, maddə 1055, № 10, maddə 1634, № 12, maddə 2078; 2017, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2285; 2018, № 1, maddə 48, № 5, maddə 929) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissədə "2019-cu il yanvarın" sözləri "2018-ci il sentyabrın" sözləri ilə əvəz edilsin.

2. Həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə" üzrə:

2.1. 2.9-cu bəndin birinci cümləsinə "fotoşəkli" sözündən sonra "və əl-barmaq izləri" sözləri əlavə edilsin;

2.2. 2.10-cu bəndə "Vətəndaşın" sözündən sonra "əl-barmaq izlərinin götürülməsi, habelə" sözləri əlavə edilsin;

2.3. 2.14.12-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.14.13-cü yarımbənd əlavə edilsin:

"2.14.13. vəsiqə sahibinin əl-barmaq izləri (hər əlindən bir barmaq izi).";

2.4. 2.18-ci bənddə "və 2.14.12-ci" sözləri ", 2.14.12-ci və 2.14.13-cü" sözləri ilə əvəz edilsin;

2.5. 2.23-cü bəndə "çəkilməklə" sözündən sonra "və əl-barmaq izləri götürülməklə" sözləri əlavə edilsin;

2.6. 6.1-ci bənddə "2019-cu il yanvarın" sözləri "2018-ci il sentyabrın" sözləri ilə əvəz edilsin;

2.7. 6.3-cü bəndə "vətəndaşın" sözündən sonra "əl-barmaq izləri götürülmür, həmçinin" sözləri əlavə edilsin;

2.8. 6.5-ci bənddə "və 2.14.7-ci" sözləri ", 2.14.7-ci və 2.14.13-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2018-ci il*

# Azərbaycan bütün tərəfdaş dövlətlərlə bərabərhüquqlu əlaqələrin qurulmasının tərəfdarıdır

Azərbaycan öz xarici siyasətində bütün tərəfdaş və dost dövlətlərlə bərabərhüquqlu və normal əlaqələrin qurulmasının tərəfdarıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev TRT World kanalına müsahibəsində aparıcının Azərbaycanın Rusiya və Almaniya ilə əlaqələri və regiona artan maraqlar haqqında sualını cavablandırarkən deyib.

Rusiya və Azərbaycanın qonşu dövlətlər olduğunu və iki ölkə arasında ənənəvi dostluq əlaqələrinin hökm sürdüyünü deyən XİN-in sözçüsü iki ölkənin birgə səylər və tədbirlərlə əməkdaşlığı daha da gücləndirməyə çalışdığını vurğulayıb. Digər tərəfdən o, Azərbaycanın Avropa İttifaqından olan tərəfdaşlarla yaxından əməkdaşlıq etdiyini qeyd edərək Avropa İttifaqı və təşkilata üzv dövlətlər, o cümlədən Almaniya ilə əməkdaşlıq üzrə Azərbaycanın geniş gündəliyinin olduğunu diqqətə çatdırıb.

Dağlıq Qarabağ münaqişəsinin həlli və vasitəçilik missiyaları haqqında sualı cavablandıran Hikmət Hacıyev Cənubi Qafqaz regionunun Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən davam edən işğalından əziyyət çəkdiyini və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğunun regional sülh və təhlükəsizliyi ciddi təhdid etdiyini vurğulayıb. Münaqişənin həlli üzrə yol xəritəsinin hər kəsə aydın olduğunu və bunun beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslandığını deyən XİN rəsmisi bütün həmsədr ölkələrin BMT TŞ-nın qətnamələrinin tələblərinin yerinə yetirilməsi üçün səylərini artırmasının vacibliyini diqqətə çəkib. Münaqişənin həllində Almaniyanın roluna gəldikdə isə o, Almaniyanın Minsk qrupunun üzv ölkələrindən biri olduğunu bildirərək deyib: "Azərbaycanın gözləntisi ondan ibarətdir ki, Minsk qrupunun həmsədrləri ilə birlikdə Minsk qrupunda iştirak edən bütün dövlətlər fəal olaraq BMT TŞ-nın qətnamələrinin həyata keçirilməsinə dəstək olmalıdırlar". BMT TŞ-nın qətnamələrinin mahiyyətinə toxunan Hikmət Hacıyev xatırladıb ki, bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Yekunda XİN rəsmisi Azərbaycan xalqının 25 ildən artıq bir dövr ərzində bu münaqişədən əziyyət çəkdiyini və Azərbaycanın münaqişənin substantiv və intensiv danışıqlar yolu ilə həllini dəstəklədiyini qeyd edib.

# *Müdafiə naziri:* "Fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır"



Sentyabrın 1-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər vəzifəli şəxslər cəlb olunub.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuz qarşısında qoyduğu tapşırıqları bir daha müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri xüsusi olaraq vurğulayıb ki, ordu quruculuğu istiqamətində görülən işlərin, həyata keçirilən tədbirlərin və ümumilikdə bütün fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır.

Qoşunlarda aparılan intensiv döyüş hazırlığı, gündəlik fəaliyyət və döyüş işinin təşkili, xidməti və döyüş fəaliyyətinin hərtərəfli təminatı, əməliyyat hazırlığı tədbirlərinin planlaşdırılması, həmçinin cəbhə bölgəsində yerləşən və qoşunların digər dislokasiya yerlərindəki cari vəziyyəti təhlil edən nazir müvafiq göstərişlər verib.

Eyni zamanda, general-polkovnik Z.Həsənov müxtəlif səviyyəli təlimlərin, planda nəzərdə tutulan digər vacib tədbirlərin təşkili və keçirilməsi, o cümlədən şəxsi heyətin, maddi-texniki vasitələrin, xüsusilə dağlıq ərazilərdə yerləşən postların və mövqelərin qış mövsümünə hazırlığının aparılması ilə bağlı tapşırıqları da müəyyən edib.

# Naxçıvanda təməli qoyulan xilaskarlıq missiyası

## 1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi istiqlal mücadiləsini doğru istiqamətə yönəltdi

*Əvvəli 1-ci səh.*

Bütün bunlar yalnız və yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət Naxçıvan MR Ali Məclisi tərəfindən verildi. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin sessiyasının müzakirəsinə təqdim etdi. Həmin gün Ali Məclisin binası önünə toplanmış xalq kütlələrinin ciddi tələbi, muxtar respublika deputatlarının fəallığı və Heydər Əliyevin böyük siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə qanlı Yanvar hadisələrinə düzgün siyasi qiymət verilmiş, bu hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilmiş və onların adları açıq göstərilərək məsuliyyətə cəlb edilmələri tələb olunmuşdu.

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan MR-in ictimai-siyasi həyatında onun müqəddəratını həll edəcək mühüm hadisələr baş verdi. Sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildi. Bu, Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi.

1991-ci ilin ikinci yarısından etibarən Azərbaycanda hakimiyyət böhranının dərinləşməsi demək olar ki, son həddə çatmışdı. Etibarını itirmiş Azərbaycan Kommunist Partiyası artıq səlahiyyətlərini də itirməkdə idi. Naxçıvan Vilayət Partiya Komitəsi də Muxtar Respublika Ali Məclisinin sessiyalarının keçirilməsində maraqlı olmurdu. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da sözün əsl mənasında, elan olunmamuş fövqəladə şərait yaranmışdı. Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının çağırılması ölkədə, o cümlədən regionda yaranmış çətin və mürəkkəb vəziyyətin tələblərindən irəli gəlmişdi.



Sessiyanın gündəliyinə geniş mənada həmin tarixi mərhələnin aktual məsələləri daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Eyni zamanda, gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Gündəlikdə nəzərdə tutulan məsələlərin hamısı fövqəladə zamanın meydana çıxardığı aktual problemlər idi və Azərbaycan üçün taleyüklü məsələlər hesab edilirdi. Bu problemlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarəti və uzaqgörənliyindən çox asılı idi. Buna görə, Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi.

Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan Heydər Əliyevin Ali Məclisin sədri seçilməsini tələb edirdi. Lakin sessiyanın keçirilməsinə qədərki mərhələdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, MR Ali Məclisinin üzvü kimi ölkədə, o cümlədən regionda gedən ictimai-siyasi proseslərdə öz sözünü deyən, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən özünü bütövlükdə dövlət müstəqilliyi uğrunda mübarizəyə həsr edən Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını bildirmişdi. Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdi. Lakin xalqın və Naxçıvan MR Ali Məclisi deputatlarının təkidi ilə Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verdi.

3 sentyabr 1991-ci il tarixdə, öz işinə başlayan sessiyanın iclasları 4 sentyabr, 5-6 və 7 sentyabrda 5 gün ərzində davam etdirildi, ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olundu. Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin sifarişlə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etdi. Eyni zamanda, 3 sentyabr 1991-ci il sessiyasında "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək Azərbaycan Respublikasının Ali Sovetindən xahiş olundu ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıdıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumların fəaliyyəti dayandırılsın. Bunlar Azərbaycanda müstəqil dövlətçiliyin bərqərar olmasına xidmət edən tarixi qərarlar idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində sovet ordusu hissələri MR ərazisindən çıxarıldı. Ulu öndərin ən böyük xidmətlərindən biri Naxçıvanı Ermənistanın işğalından xilas etməsi idi. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə və İrana səfərləri, apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynadı. Heydər Əliyev Naxçıvan MR-in rəhbəri olduğu dövrdə muxtar respublikada elmin, təhsilin, mədəniyyətin, siyasi maarifçiliyin ictimai faktora çevrilməsi, inkişaf etdirilməsi məsələlərinə ciddi əhəmiyyət verilmiş, bu sahələrdə yaddaqalan tədbirlər həyata keçirilmişdi.

Heydər Əliyevin 1991-ci ilin sentyabrında Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən prosesə ciddi təsir göstərdi, istiqlal mücadiləsini doğru istiqamətə yönəltdi. Bu, xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Qarşıda isə ulu öndəri daha çətin, eyni zamanda, şərəfli bir missiya gözləyirdi...

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Müstəqil siyasət kursu Azərbaycanın etibarlı tərəfdaş mövqeyini möhkəmləndirib

## Ölkəmiz dünya birliyində sözünü qətiyyətlə deyir, milli maraqlarını prinsipiallıqla qoruyur



*Əvvəli 1-ci səh.*

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi vəziyyətini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim etməklə, Cənubi Qafqazın lider dövləti statusunu qoruyub saxlayır. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur.

Respublikamızda həyata keçirilən demokratik islahatlar və iqtisadi dəyişikliklər, fəal xarici siyasət dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəldir, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına və inkişafına əlverişli zəmin yaradır.

### Beynəlxalq təşkilatlarla münasibətlər yeni mərhələyə qədəm qoyub

Təkcə son 8 ayda ölkəmizə səfər edən dövlət və hökümət başçıları ilə Prezident İlham Əliyevin keçirdiyi görüşlərə, verilən bəyanatlara nəzər yetirsək, aydın şəkildə görərik ki, Azərbaycan dövlətinin yürütdüyü tam müstəqil siyasət respublikamızın nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldib.

Eləcə də İlham Əliyevin xarici səfərləri, iştirak etdiyi beynəlxalq toplantılar Azərbaycanın siyasətinin kifayət qədər uğurlu, düşünülmüş və çoxşaxəli olduğunu, dövlətin və xalqın maraqlarına layiqincə xidmət etdiyini göstərir. Hər bir səfər Azərbaycanın ayrı-ayrı dövlətlərlə və təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da genişlənməsinə təkan verir.

Yanvar ayında Dünya İqtisadi Forumunda iştirak edən dövlət başçısı burada keçirilən interaktiv iclaslarda bir daha Azərbaycan həqiqətlərini dünyaya bəyan etdi. İyul ayında Avropa İttifaqı və Azərbaycanın münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşıyan sənədin paraflanması, NATO-nun Brüssel Sammitində qəbul edilən yekun kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi isə bir daha təsdiq etdi ki, beynəlxalq təşkilatlarla Azərbaycanın münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqdadır və bu da əlbəttə ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini və rolunu daha da möhkəmləndirir.

### Avropa İttifaqı üçün mühüm ölkə

İyul ayında isə İlham Əliyevin Avropa İttifaqının əsas güc sahibləri olan İtaliya və Fransa prezidentləri ilə keçirdiyi görüşlər, imzalanan yeni sənədlər Azərbaycanın bu ölkələrlə münasibətlərini daha da möhkəmləndirmiş oldu.

Öncə iyulun 18-də İtaliya Prezidenti Sercio Mattarella bu ölkənin Azərbaycana səfər edən ilk Prezidenti kimi adını iki dövlətin siyasi tarixinə yazdırdı. İki gün sonra Azərbaycanın dövlət başçısı Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfər etdi. Avqustun 25-də isə Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel ölkımizdə birgünlük səfərdə oldu.

Beləliklə, son 2 ay ərzində Avropanın üç böyük dövləti ilə Azərbaycanın mövcud münasibətləri bir qədər də şaxələndi. İmzalanan yeni müqavilələr iqtisadi münasibətlərin daha da dərinləşməsinə real zəmin yaratdı.

Federal Kansler Angela Merkel Bakı səfərində Azərbaycanın bugünki durumunu dəyərləndirərkən bildirdi ki, respublikamız Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Azərbaycan az bir zamanda çox sürətli inkişafa nail olub.

Azərbaycan dünyanın 180-ə yaxın ölkəsi ilə diplomatik münasibətlər qurub. Bu münasibətlər xarici ölkələrdə və beynəlxalq təşkilatlar yanında 91 diplomatik missiya təsis etməsi fonunda baş verib. Hazırda Bakıda 53 səfirlik, 4 baş konsulluq, 12 fəxri konsulluq və 12 beynəlxalq təşkilatın daimi nümayəndəliyi fəaliyyət göstərir.

Əlbəttə ki, bütün bunlar tam müstəqil siyasətin yaratdığı reallıqdır. Məhz bu siyasət həm Azərbaycanın beynəlxalq birlikdəki mövqeyini gücləndirir, həm də onun liderinin nüfuzunu hər keçən gün daha da yüksəldir və təsdiqləyir ki, bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var və bu, bir dövlətin 25 illik müstəqillik yolunun uğur salnaməsi hesab oluna bilər.

### Daim inkişafa, tərəqqiyə doğru

Təhlillər göstərir ki, Azərbaycan regionun geosrateji rolunda aparıcı ölkədir, regional layihələrin əsas təşəbbüskarı və iştirakçısıdır. 15 il ərzində kosmik dövlətlər sırasına daxil olan, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin nümunəsinə çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha da qüdrətli dövlətə çevrilmək istiqamətində inamla addımlayır.

Əlbəttə ki, düzgün seçilən yol ölkəni daim inkişafa, tərəqqiyə aparır. İlham Əliyev isə bu yolu dəyərləndirərkən Azərbaycanın daim doğru yolda olduğunu qətiyyətlə vurğulayır: "Biz düzgün yoldayıq. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq".

Söz yox ki, bunun əsas səbəbi güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Azərbaycanda bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərir. Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyin tam şəkildə təmin olunması müstəqil Azərbaycanı beynəlxalq arenada öz sözünü deyən, milli maraqlarını qoruyan dövlətə çevirib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ölkəmizin tranzit və logistik imkanları artır

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra öz əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək tranzit ölkəsinə çevrilmək üçün uğurlu layihələrin icrasına başladı. Bu layihələri həyata keçirmək üçün ilk növbədə, siyasi qərarlar qəbul edilməli idi. Məsələn, Azərbaycan TRASEKA layihəsinin təşəbbüskarı olduğu kimi, onun icrasında da mühüm rol oynadı. Dövlətimizin bu istiqamətdə apardığı siyasət öz müsbət nəticəsini verdi. Beləliklə, Transxəzər magistral xəttinin istifadəyə verilməsi ölkəmizdən yüklərin daşınmasına müsbət təsir göstərdi.



Eyni zamanda, Azərbaycan Xəzər dənizində ən böyük mülki donanmaya malikdir. Bu, ölkəmizə Xəzər dənizi üzərindən yüklərin daşınmasında önəmli rol oynamağa imkan yaradır. Digər tərəfdən, Xəzər sahilində Ələt Beynəlxalq Ticarət Limanının tikintisi ölkəmizin tranzit və logistik imkanlarını genişləndirir.

Şimal-Cənub nəqliyyat marşrutu da Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Bu dəhlizin fəaliyyətə başlaması Asiyadan Avropanın şimalınadək geniş bir ərazidə yükdaşımaların həcmini artırır. Hazırda bu marşrut üzrə dəmir yolu xəttində yenidənqurma işləri həyata keçirilir. Nəticədə qatarların sürət həddi artacaq, daha çox yük daşınmasına imkan yaranacaq.

Avqustun 12-də Aktauda Xəzər dənizinin hüquqi statusunu müəyyən edən konvensiyanın bağlanması da ölkəmizin tranzit imkanlarını genişləndirəcək. Belə ki, Xəzərin hüquqi statusunun qeyri-müəyyənliyi buradan yük göndərən ölkələri ehtiyatlı olmağa sövq edirdi. Yəni, qeyri-müəyyənlik bu marşrutdan səmərəli istifadə edilməsinə müəyyən əngəl törədirdi. Artıq bu problem də aradan qalxdı. Çindən Avropaya və əks istiqamətdə daşınan yüklərin 10 faizi Azərbaycan üzərindən nəql olunarsa, bu, ölkəmizə iqtisadi səmərə verməklə yanaşı, regionda və dünyada siyasi çəkimizi də artıracaq.

Prezident İlham Əliyevin 6 avqust 2018-ci il tarixli "Yeni Bakı Beynəlxalq Ticarət Limanının və liman ərazisində sərnişin terminalının tikintisi haqqında" imzaladığı sərəncam ölkəmizin tranzit və logistik imkanlarını daha da genişləndirəcək. Sənəddə qeyd edilir ki, Azərbaycanın regionun mühüm nəqliyyat və logistik mərkəzinə çevrilməsi siyasətinin reallaşması istiqamətində qarşıya qoyulmuş hədəflərdən biri də Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən, 2018-ci il mayın 24-də açılışı olmuş yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksidir. Kompleks ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm yer tutmaqla, idxal, ixrac və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyasını yerinə yetirərək Xəzər dənizi üzərindən effektiv, sürətli və təhlükəsiz keçidi təmin edir. Bu məqsədlə dövlət başçısı tərəfindən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tranzit imkanlarının genişləndirilməsi üçün dövlət büdcəsindən 10,2 milyon (10 milyon 200 min manat) vəsait ayrılıb. Ayrılan vəsait limanda nəzərdə tutulan işlərin sürətlə həyata keçirilməsində və tranzit yüklərin, xüsusilə idxal-ixrac əməliyyatlarının operativliyinin təmin edilməsində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa edilən Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib. Dövlət başçısına məlumat verilib ki, burada inşaat işlərinə ötən ilin aprel ayından başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən mərkəzin sutkalıq yükdaşıma qabiliyyəti 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Mərkəz vasitəsilə ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı nəzərdə tutulub.

Müəssisə ilkin mərhələdə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqələrini təmin edərək logistika xidməti göstərəcək. İkinci mərhələnin icrası üçün ayrılan əlavə 35 hektarda layihə işləri hazırlanıb. Bu mərhələ yekunlaşdıqdan sonra ölkəmizin coğrafi logistik imkanları genişlənməklə yanaşı, daha çox mənfəət əldə etməsinə imkan yaranacaq.

Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və s. xidmətlər göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib.

Bu müəssisə regionumuzda ən iri logistik mərkəzdir. İllik yükdaşıma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması həyata keçiriləcək. Mərkəzin tikilməsində əsas məqsəd müştərilərə müasir standartlara cavab verən xidmət göstərilməsidir. Bunun üçün bütün xidmətlər "vahid pəncərə" sistemi qaydası ilə həyata keçiriləcək.

Logistik mərkəzin yerləşdiyi ərazi də məqsədəuyğun seçilib. Belə ki, bu müəssisənin "Meyvəli" MMC-yə, Bakı Baş Gömrük İdarəsinə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, "Sədərək" və "Binə" ticarət mərkəzlərinin yaxınlığında yerləşməsi onun iqtisadi əhəmiyyətini daha da artırır. Həmçinin Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən Abşeron Logistika Mərkəzinə yönəldiləcək. Bu da iritonnajlı yük maşınlarının şəhərə gəlişinin qarşısını alacaq, tıxacların sayını xeyli azaldacaq. Eyni zamanda, şəhərin ekologiyasına mənfi təsirin qarşısı alınacaq.

Yeni tranzit infrastrukturu olan Abşeron Logistika Mərkəzi Bakı-Tbilisi-Qars, İran-Astara-Bakı, Rusiya-Yalama-Ələt dəmir yolu marşrutları ilə əlaqəlidir. Bakı-Tbilisi-Qars dəmir yolu tam gücü ilə fəaliyyətə başladıqdan sonra bu mərkəz xarici ölkələrlə idxal-ixrac əməliyyatlarının və Azərbaycan ərazisindən multimodal yükdaşımalarının çevik həyata keçirilməsinə imkan yaradacaq. Mərkəzin Asiya ilə Avropanın, Şimalla-Cənubun qovuşuğunda yerləşməsi ölkəmizin tranzit əhəmiyyətini daha da artıracaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# “Yaşıl turizm” kənd əhalisi üçün həm də ikinci gəlir mənbəyidir






*Əvvəli 1-ci səh.*

Göygöl rayonu füsunkar təbiəti ilə yanaşı, tarix və mədəniyyət abidələri ilə də zəngindir. Rayonda XII, XIV, XVI və XIX əsrlərə aid 31 yerli əhəmiyyətli tarixi və memarlıq abidələri mövcuddur. Bunlardan 8-i kurqan, nekropol və açıq düşərgə, digərləri isə bina və körpülərdir. Bütün bu mənəvi və maddi zənginliklər isə yerli turistlərlə yanaşı, əcnəbi qonaqları da özünə cəlb edir. Ən çox da “yaşıl turizm”, yəni, kənd turizmi sürətlə inkişaf etməyə başlamışdır. İstirahətin bu növünün insanlar üçün ucuz başa gəlməsi ilə yanaşı, həm də turistlərə daha çox rahatlıq gətirir.

Göygöl şəhərinə daxil olanda ilk dəfə diqqəti çəkən nizamla düzülmüş evlər olur. Qırmızı kərpicdən tikilmiş və çox da hündür olmayan bu evlərin küçəyə baxan hissəsi əsasən taxtadandır. Son illər əsaslı şəkildə təmir edilərək əvvəlki görkəminə salınan bu evlər vaxtilə burada yaşayan almanlar tərəfindən inşa edilib. Şəhərin əsaslı şəkildə yenidən qurulan, təmir və bərpa edilən küçə və prospektlərini gəzdikcə, yeni tikintilərlə tanış olduqca, milli arxitektura elementlərini seyr etdikcə, park və xiyabanları dolaşdıqca bu füsunkar diyarın niyə turistlərin maraq dairəsində olduğunun səbəbini başa düşürsən.

## Azərbaycanda turizmin inkişafı dövlət siyasətinin tərkib hissəsidir

Son illər Azərbaycanda turizm infrastrukturunun yenilənməsi nəinki yerli, eləcə də xarici turistlərin də ölkəmizə marağını xeyli artırmışdır. Ölkə rəhbərinin turizm sektorunun inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, artıq bu sahədə uğurlu göstəricilərə nail olunmuş, iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmişdir. Belə ki, bununla bağlı qəbul olunmuş dövlət proqramları ölkəmizdə turizmin inkişafını sürətləndirmiş, onun yüksək tələblər səviyyəsində qurulmasına imkanlar yaratmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra iqtisadiyyatın digər sahələri kimi turizmin inkişafı da ön plana çəkilmişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək dünya standartlarına yaxınlaşdırılan bu gəlirli sahənin inkişaf etdirilməsi istiqamətində çoxlu sayda layihələr həyata keçirilmişdir. Bununla da qısa müddət ərzində daxili və xarici sərmayələrin cəlb edilməsinə, təqdim olunan xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara yaxınlaşdırılmasına və beləliklə də dünya turizm bazarında rəqabət qabiliyyətinin artırılmasına nail olunmuşdur.

Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan yüksək nailiyyətlər turizmin inkişafında da özünü göstərməyə başlamışdır. Artıq ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizm, xüsusilə kənd turizmi sürətlə inkişaf etməyə başlamışdır. İndi istər yerli, istərsə də xarici turistlərin kənd evlərində yaşayıb istirahət etmək həvəsi daha da artmışdır. Bunun da əsas səbəbi kənd həyatını yaşamaqla bir müddət səsli-küylü şəhərdən uzaqlaşmaq istəyidir. Sadə kənd evlərində yaşayıb istirahət edən bu insanlar kənd həyatından zövq almaqla yanaşı, həm də buna təbii müalicə üsulu kimi də baxırlar.



## Göygöl Milli Parkı açılandan bu bölgəyə gələnlərin sayı artıb

Yay mövsümündə qonaqlı-qaralı olan Göygöl rayonunun yarıdan çox kəndi Göygöl Milli Parkına yaxın ərazidə yerləşir. Yeni Zod, Aşıqlı, Toğanalı, Topalhəsənli, Üçbulaq, Çaykənd, Mixaylovka, Şəhriyar və sair kəndlərdə yay istirahətini keçirənlər çox asanlıqla milli parkın ərazisində yerləşən Göygölə səyahət edə bilirlər. Sevindirici haldır ki, keçən il bu kəndlərə 81 min nəfərdən çox turistin gəlməsi qeydə alınmışdır. Onun da 5 min nəfəri əcnəbilər olmuşdur.

Rayonda ən çox turist qəbul edən Aşıqlı kəndidir. Kəndin 2340 nəfər əhalisi var, rayon mərkəzindən cəmi 5 kilometr məsafədə yerləşir və hər cür infrastrukturla təmin edilib. Asfalt yol, su, qaz, elektriklə təminat yüksək səviyyədədir. Ərazisində “ADA”, “Gilavar”, “Kəpəz” və sair istirahət mərkəzləri fəaliyyət göstərir.

Aşıqlı kəndində 400-dən artıq ev var. Hacıkənd və Göygölə gedən yolun üstündə olduğundan turistlər burada qalmağa daha çox üstünlük verirlər. Ona görə də kənd sakinləri hər il mövsümqabağı evlərini təmir etdirir, turistlərin rahatlığı üçün hər bir şərait yaradırlar. Onlar ikinci gəlir yeri kimi kənd turizminin inkişafı üçün bütün imkanlardan istifadə edirlər. Turistlər üçün ən vacib hesab edilən qiymət məsələsi də diqqət mərkəzində saxlanılır. Belə ki, turistlərin rahat istirahəti üçün yüksək şərait yaradılmış evlərin bir günü 20-30 manat civarında dəyişir. Keçən il kənddə 2000 nəfərdən artıq turist istirahət etmişdir. Bu il havaların həddindən artıq isti keçməsi turistlərin sayında xeyli artım müşahidə edilib.

Aşıqlı kəndinin sakini İkram Məmmədov deyir ki, turistlərin qəbulu üçün evində hər cür şərait yaradıb. 4 otaq tikdirib. Hər il 60-70 nəfər ailəvi turist qəbul edir.

Kənd sakini Lamiyyə Əliyeva da hər il turistlərdən xeyli miqdarda gəlir əldə edir. Həyətində eyni vaxtda 10 nəfərədək turist qəbul etməyə şəraiti var. Burada yaradılan səliqə və sahmanın yüksək səviyyədə olduğundan yay mövsümündə ev boş qalmır.

Aşıqlı kənd nümayəndəliyinə daxil olan Köşkü və Üçbulaq kəndləri də turistləri özünə cəlb edir. Üçbulaq kəndində müalicəvi əhəmiyyəti olan “Nurud” suyu çıxır.

Yaşıl meşələr qoynunda yerləşən Üçbulaq kəndində istirahət edənlərin sayı da ildən-ilə artır. Onlar maraqlı gəzintilərdə iştirak edir, tarixi abidələrlə yaxından tanış olurlar. Kənd sakinləri turistlərin istəklərinə uyğun olaraq onlara təbii süd məhsulları, kənd çolpaları təklif edirlər ki, bu da dincələn hər ailə tərəfindən razılıqla qarşılanır. Hətta turistlər yerləşdikləri evlərin həyətlərindəki meyvələrdən də bəhrələnirlər. Yerli və xarici turistlərin maraq göstərdikləri Üçbulaq kəndini Göygöllə cəmi bir dağ ayırır. Sıx meşələrin arası ilə asfalt yolla cəmi 20 dəqiqəyə göllər tacı Göygölə, eləcə də onun ətrafındakı digər göllərə getmək olar.

Göygölə ən yaxın kənd isə Toğanalıdır. Buradan cəmi 5 dəqiqəyə Göygölə çatmaq olar. Odur ki, hər il rayona gələn turistlər bu kəndə daha çox maraq göstərirlər. Dağlardan axıb gələn çay kəndi iki yerə bölür. Çayın gur səsi insanlara rahatlıq, ürəklərə isə sərinlik gətirir. Son illər burada infrastruktur tamamilə yenilənib. Yaponiya hökumətinin maliyyə dəstəyi ilə 8 kilometr məsafədən içməli su xətti çəkilib. Burada tibb məntəqəsi, poçtamt, kitabxana fəaliyyət göstərir. Kəndə yaxın ərazidə “Cənnət məkan”, “Ağrı dağı”, “Gəncəbasar” və sair istirahət mərkəzləri fəaliyyət göstərsələr də, yerli və xarici turistlər ən çox kənd turizminə üstünlük verirlər. Əvvəla, onlar bunu ona görə istəyirlər ki, evlərdə qalmaq çox ucuz başa gəlir, digər tərəfdən təbii şəraitdə istirahət edirlər.

Toğanalı kəndi hər il 100 nəfərə yaxın xarici turist qəbul edir. Gələnlərin əksəriyyətini almanlar təşkil edir. Onların daha çox maraq göstərmələri vaxtilə ata-babalarının burada yaşamasıdır. Turistlər kənddə istirahət edə-edə soykökləriniin irsini öyrənir, onların keçirdikləri həyat tərzi ilə yaxından tanış olurlar. Bunun üçün isə rayonda bütün imkanlar yaradılıb. Rayon rəhbərliyinin təşəbbüsü ilə vaxtilə salınmış evlər, eləcə də XIX əsr Lüteran kilsəsi əsaslı şəkildə təmir edilmiş, rayonda yaşayan sonuncu alman Viktor Klaynın ev-muzeyi yaradılmışdır. Azərbaycanda alman irsinə göstərilən bu qayğıya görə, onlar daim minnətdarlıq edirlər. Almaniyalı turist Ayki Potram deyir ki, Göygöl rayonuna səfəri onda xoş təəssürat oyatdı. Vaxtilə babalarının yaşayışı, məşğuliyyəti barədə geniş məlumat aldı. Buraların təbiəti də onda xoş ovqat yaradıb.

Bu il Göygölə gedən yolun yenidən qurulması turistlərin artımında əsas rol oynamışdır. Belə ki, qısa vaxt ərzində dövlət başçısı İlham Əliyevin sərəncamı ilə ayrılmış vəsaitlə Göygöl rayon mərkəzindən Göygölədək olan yol genişləndirilərək dünya standartlarına uyğun yenidən qurulmuşdur. 7 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 38 kilometr olan yolda hazırda yenidənqurma işləri başa çatmaq üzrədir. İndi avtomaşınların sərbəst və təhlükəsiz hərəkəti demək olar, tamamilə təmin edilmişdir. Göygöl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə yol boyu mövcud olan yöndəmsiz köşklər götürüldükdən sonra bir neçə yerdə müasir iaşə obyekti tikilmişdir.

Ümumiyyətlə, rayonda kənd turizmi üçün geniş potensial imkanlar var. Əvvəla, bu ərazilərdə turistlər üçün lazım olan bütün imkanlar - o cümlədən təmiz hava və təbii su ehtiyatı, yaşıllıq, cəlbedici təbiət mənzərələri, infrastruktur, xüsusilə abad yollar var ki, bu da gələn qonaqlara rahatlıq gətirir.

Kəndə istirahətə gələn turist kənd əhalisinin bütün təbəqələrinin sosial vəziyyətinə təsir edə bilir. Məsələn, əhalinin maddi rifahının yaxşılaşdırılması, kənd əhalisinin istehsal etdikləri məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, bölgənin adət-ənənələrinin və mətbəxinin, eləcə də məişətinin öyrənilməsi kimi məsələlər öz həllini tapır. Bu il rayona gələn xarici turistlər arasında Türkiyə, Almaniya, Rusiya, Gürcüstan, İran, Yaponiya, İsveçrə, eləcə də Rumıniyadan çoxluq təşkil etmişdir. Onlar istər rayonun tarixi yerlərinə, istərsə də Göygölə maraqlı ekskursiyalar etmiş, ümumilikdə, Azərbaycan haqqında ətraflı məlumat toplamışlar. Rusiya Federasiyasından Azərbaycana istirahətə gəlmiş və istirahətini rayonun Yeni Zod kəndində keçirmiş Nikolay Fyodorov deyir ki, ikinci dəfədir Azərbaycana gəlir: “Bu gəlişimi yay aylarına saldım. Burada ailəmlə birlikdə xoş günlər keçirdim. Doğrudan da Azərbaycan gözəl ölkədir. Göygöl isə Azərbaycanın dilbər guşəsidir. Təbiəti çox zəngindir. Ekskursiya zamanı bizə dedilər ki, Göygöl Milli Qoruğunda 80 növdən çox ağac var. Buraları görmək mənə böyük zövq verdi. Hətta Göygöl gölünə tamaşa etdikcə ürəyimdən bir hiss keçdi. Doğrudan da o, yatmış gözəli xatırladır”.

Türkiyəli Erkan Tuncay da Azərbaycanda dincəlməyindən məmnun qaldığını bildirdi. Dedi ki, buralar doğrudan da əsl cənnətməkandır. İnsan təbiəti seyr etdlkcə, meşələrin təmiz havasını udduqca və buz bulaqların suyundan içdikcə sanki on il cavanlaşır. Mən gələn il də burada dincəlməyi qərara almışam.

Gördüklərimiz bir daha təsdiqlədi ki, kənd turizminin inkişafı hər bir bölgəyə, onun sakinlərinə xeyli gəlir gətirir. İnsanlar ikinci gəlir yeri olan bu sahənin inkişafına daha çox maraq göstərirlər. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurlu icrası, ölkə rəhbərinin bu istiqamətdə atdığı uğurlu addımlar kənd turizminin inkişafına müsbət təsir göstərir. Xüsusilə, kəndlərdə infrastrukturun yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər istər yerli, istərsə də xarici turistlərin Azərbaycana marağını artırır. Turistlərin sayı artdıqca əhalinin gəlirləri ilə yanaşı, ölkəmizin nüfuzu da artır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***



Tarixləşən heykəllər

# Cəfər Cabbarlının ikinci ömrü

İnsanlar unutmaq istəmədiklərini gözlərinin önündə tutarlar. Baxdıqca xatırlayar, onların missiyalarını dönə-dönə yad edərlər. Azərbaycan tarixində, mədəniyyətində, ədəbiyyatında müstəsna xidmətləri olanların da bir çoxunun abidələri Bakının ən diqqətçəkən məkanlarında ucaldılıb. Şəhərimizə xüsusi görkəm verən bu əzəmətli sənət nümunələrinin arasında onun ayrıca yeri var.

Əllərini sinəsinə çarpazlayıb. Fikirli görünür. Uzaq nötəyə dikilmiş dalğın baxışları qayğılı, bir az da qüssəlidir. Sanki böyük Cəfər Cabbarlı yenə xalqını düşünür. Qismətinə düşən qısa ömür payını da bu yolda sərf etmişdi axı...



## *Çətin taleli abidə...*

Onun abidəsi elə adını daşıyan meydanında, paytaxtın ən gəlimli-gedimli yerlərindən birindədir. Heykəl o qədər peşəkarlıqla hazırlanıb ki, hər gün iş-güc dalınca qaçan, bir-birlərini görməyə tələsən insanların baxışlarından kənarda qalmır. Ancaq qəhrəmanının - Cəfər Cabbarlının özü kimi bu dəyərli əsərin də taleyi mürəkkəb olub. Bu dünyada cəmi 35 il ömür sürən sənətkarın heykəli 22 ildən artıq müddətə ərsəyə gəlib.

XX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında əvəzsiz xidmətlər göstərən görkəmli dramaturq, şair, nasir, teatrşünas, tərcüməçi, kinossenarist, jurnalist Cəfər Cabbarlının 60 illik yubileyinin qeyd olunması ilə əlaqədar onun Bakıda qoyulması nəzərdə tutulan abidəsinin hazırlanması üçün 1959-cu ildə müsabiqə elan edildi. Ölkənin bir çox tanınmış heykəltəraşının iştirak etdiyi müsabiqənin qalibi 35 yaşlı Mirəli Mirqasımov oldu. O, Nizami kinoteatrının arxasındakı kiçik ərazidə ucaldılacaq abidənin bədii-texniki hazırlığına başladı. Ancaq bu işdə Mirəli Mirqasımova müxtəlif maneələr, problemlər yaradıldı. Həvəsdən düşməyən heykəltəraş abidə üzərində işlərini daha məsuliyyətlə davam etdirdi. Qarşılaşdığı problemlər isə bitmək bilmirdi. Bütün bunlar onsuz da fiziki məhdudiyyətləri olan, qulaqları eşitməyən, ürək xəstəliyindən əziyyət çəkən Mirəli Mirqasımovun səhhətinə mənfi təsir göstərirdi. İş əsnasında heykəltəraş iki dəfə infarkt keçirdi. Birinci infarkt müəllif Mərkəzi Komitədəki bir məmurla heykəlin hündürlüyü ilə bağlı mühabisə edərkən baş verdi. O, məmura qətiyyətlə: “Sizin çox böyük vəzifəniz var, amma sənətkar kimi mən necə lazım bilirəmsə, elə də olacaq” - dedi. Müəllifin bu məsələdə mübarizəsi ona ilk infarktı qazandırsa da, arzusuna çatdı. O, növbəti maneələri aradan qaldırmağa çalışdı. Bu dəfə də heykəltəraşın əleyhdarları heykəlin yeri məsələsində problemi kəskinləşdirməyə cəhd göstərdilər. Onlar təkidlə heykəlin indiki yerində yox, Nizami kino teatrının arxasındakı kiçik parkda qoyulmasını tələb edirdilər. Müəllif isə bağın çox kiçik olduğunu və 5.5 metrlik heykəlin ora üçün uyğun gəlmədiyini əsas gətirərək bu məsələyə etirazını bildirirdi.

...Heykəlin hazırlanma mərhələsində heykəltəraşa həyat yoldaşı Gültəkin İsrafilovanın böyük köməyi oldu. Hətta deyirlər ki, o, işin yarımçıq qalmaması üçün öz maaşı ilə heykəltəraşa lazımi alətləri alırdı. Səbəbini soruşanlara fədakar qadının cavabı belə olurdu: “Mirəli Cəfəri öz oğlu kimi bilir, əgər heykəl hazır olmasa, o buna dözməz”.

O günlərdə hekəltəraş üçün ən asan yol işdən kənara çəkilmək olardı. Ancaq Mirəli bunu etmədi. Cəfər Cabbarlının abidəsinin hazırlanması ilə bağlı mübahisələrin, münaqişələrin xəstəxanaya saldığı Mirəli Mirqasımov Gültəkin xanıma deyirdi: “Mən Cəfəri gülünc edə bilmərəm. Mən on il tez, on il gec ölə bilərəm. Heykəl isə xalqındır. Ona baxıb xalqın tarixini, mədəniyyətini yaşadırlar”.

Heykəltəraş ikinci dəfə isə Ukraynanın daş karxanasında yonulan heykəlin 280 ton deyil 140 ton olduğunu görərkən infarkt keçirdi.

Bütün cəhdlərinə baxmayaraq, əsərin “bəxti açılmırdı”. Yalnız Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində heykəl məsələsi bir daha gündəliyə gətirildi. Həmin ildə - 1979-cu ildə Azərbaycanın o zamankı rəhbəri Heydər Əliyevin Mirəli Mirqasımovun emalatxanasında olması məsələlərin müsbət həllinə imkan yaratdı. Cəfər Cabbarlı abidəsi ilə bağlı heykəltəraşın fikirlərini diqqətlə dinləyən ulu öndər əsərin yaradıcı-texniki məsələlərinin tezliklə həllinə göstəriş verdi.

Müəllifin arzularından biri də həyata keçdi, abidənin yerləşdiriləcəyi məkan dəyişdirildi. Cəfər Cabbarlının heykəlinin Dəmiryol vağzalı ilə Neft Akademiyası arasındakı meydanda qoyulması daha məqsədəuyğun hesab olundu. Müəllifin fikri belə idi: “Cəfər Cabbarlı burada oxuyub, Sabunçu vağzalı onun həyat məktəbi olub, qaynar vağzal həyatını burada, pəncərələrdən müşahidə edib...”

Heykəltəraşın abidənin estetik tutumunun gücləndirilməsi üçün bütöv qranit parçasından istifadə edilməsi təklifi də qəbul olundu. Tezliklə onun Ukraynadan gətirilməsi üçün razılıq verildi.

## *Azərbaycanlı generalın sadiq əsgəri...*

Abidənin gips modeli tamamlanandan sonra heykəltəraş həyat yoldaşı Gültəkin xanımla birlikdə Ukraynanın Novodanilov qranit karxanasına getdi. Orada münasib qranit parçası seçiləndən sonra növbəti problem meydana çıxdı. 280 tonluq qranit abidənin yaxınlıqdakı dəmir yoluna adi mülki nəqliyyat vasitələri ilə daşınması mümkün deyildi. Bu məsələni hərbi texnikanın köməyi ilə həll etmək olardı. Amma bu da asan iş deyildi. Vilayət hərbi dairəsi komandanının razılığı alınmalı idi. Karxanada bu işin mümkünsüz olduğunu dedilər. Yenə heykəltəraş geri çəkilmədi. Hamının ümidsiz baxdığı görüşə getdilər...

Komandan qonaqları çox ciddi görkəmdə qarşıladı. Onların Azərbaycandan gəldiyini biləndə isə qaş-qabağı açıldı. Qraniti daşımaq üçün onlara istənilən sayda tank verəcəyini söylədi. Bir az əvvəlki soyuq, sərt simalı hərbçinin birdən-birə bu qədər mehriban, qayğıkeş olması qonaqları təəccübləndirdi. Məsələdən hali olanda isə həm komandanın özü kimi onlar da kövrəldilər, həm də qürur duydular...

Bu yüksək hərbi vəzifədə çalışan hərbçi İkinci Dünya müharibəsində Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları generalı Həzi Aslanovun əsgəri olmuşdu. General təsəvvüründə bütöv bir xalq haqqında o qədər ali duyğular yaratmışdı ki, komandan ondan sonra həmişə azərbaycanlılara hansısa bir yaxşılıq etmək arzusu ilə yaşamışdı. Buna görə də dərhal qranitin daşınması üçün tank ayrılmasına göstəriş verdi. Onu çəkmək üçün 7 tankdan istifadə olundu.

Qranit dəmir yolu ilə böyük zəhmətlə Bakıya gətirildi. Bundan sonra gips modelin qranitə köçürülməsi prosesinə başlanıldı. Rusiyanın ən məşhur daş yonanlarından biri, RSFSR-in əməkdar mədəniyyət işçisi Pavel Nosov bu işə cəlb olundu. Artıq abidə ilə bağlı işlər yoluna düşmüş kimi görünürdü. Amma heykəltəraşın həyəcanı bitmirdi. Heykəlin üzərində işləyən Mirəli Mirqasımov çox narahat idi. Əsər hazır olduqda heykəltəraş atelyedə ürək böhranı keçirdi. Azərbaycanın rəhbəri Heydər Əliyevin adından birinci katibin şəxsi doktoru sənətkarın sağlamlığı ilə məşğul oldu.

## *Arzusuna çatan heykəltəraş...*

“Cəfər mənim əlimlə həyata ikinci dəfə gəlib. Onu bətndə boğa bilmərəm. Bu günahdır” - deyən heykəltəraş, nəhayət, uzun illərin arzusuna çatdı. Heykəltəraşı Mirəli Mirqasımov, memarı isə Yusif Qədimov olan Cəfər Cabbarlı heykəlinin təntənəli açılış mərasimi 1982-ci ildə martın 23-də keçirildi. Mərasimdə çıxış edən Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Cəfər Cabbarlı şəxsiyyəti, yaradıcılığı və onun şərəfinə ucaldılmış abidənin bədii həlli haqqında xoş sözlər söylədi.

Həmin il Mirəli Mirqasımovun həyatında daha bir uğurlu hadisə oldu. O, Azərbaycan SSR-in xalq rəssamı adına layiq görüldü.

Mirəli Mirqasımovun ömrünün uzun illərini, sağlamlığını verdiyi heykəlin postamentində yumor və kədəri əks etdirən teatr emblemləri həkk olunub. Bu, Cəfər Cabbarlının teatr sənəti ilə bağlılığının ən dolğun şəkildə əksidir.

Kompozisiya bütövlüyü, yüksək bədii-estetik xüsusiyyətləri ilə bu dəyərli, diqqətəlayiq sənət nümunəsi 36 ildən sonra da görənləri duyğulandırır. Duruşunda qürurverici əzəmət duyulan Cəfər Cabbarlı heykəli Azərbaycan heykəltəraşlıq sənətinin ən gözəl nümunələrindən biridir.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# Sonalar geri döndü

İndi Bakının Azneft dairəsi ərazisindən keçənlərin üzündə ılıq bir təbəssüm yaranır. Gənclər və yeniyetmələr gördükləri yeniliyə heyran olur, yaşlı və orta nəslin nümayəndələri isə xeyli vaxtdır yoxluğundan nostalji yaşadıqları "Qu quşları" ilə yeni görüşdən məmnun qalırlar.

Bu xoş duyğuları bakılılara və paytaxtın qonaqlarına Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın növbəti xeyirxah təşəbbüsü bəxş edib. Belə ki, "Qu quşları" fəvvarələr kompleksi yenidən bərpa edilib və tarixi siması özünə qaytarılıb.

"Qu quşları"nın geri dönməsi təsadüfi deyil. Çünki bu kompleks Bakı bulvarının yaraşığı, Bakı şəhərinin rəmzlərindən biri idi. Kompleksə ilkin görkəminin qaytarılması ənənələrə hörmət bəslənməsi, Bakının gözəlliyinin artması, müasir və tarixi memarlığın vəhdətinin yaşaması deməkdir.

Məlumdur ki, bu kompleks dahi şair Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və böyük bəstəkar Qara Qarayevin eyni adlı baletinə əsasən yaradılıb. Deməli, bu, memarlığımızla yanaşı, həm də ədəbiyyat və incəsənətimizə diqqət və sayqının təzahürüdür. Odur ki, "Qu quşları" ilə bakılıların yeni görüşünün özü də mühüm bir hadisədir.

*Foto Fərman BAĞIROVUNDUR, "Azərbaycan"*



# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR



### Türkiyə-Niderland əlaqələri normallaşır

Türkiyə və Niderland diplomatik münasibətlərin normallaşdırılması barədə razılıq əldə etmişlər. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğluna istinadən "Anadolu" agentliyi xəbər verir. Avstriyanın paytaxtı Vyanada niderlandlı həmkarı Stef Blokla keçirilmiş görüşün nəticələrini şərh edən nazir qeyd etmişdir ki, yaxın vaxtlarda hər iki ölkədəki diplomatik missiyaların başçılarının təyin olunması barədə razılığa gəlinmişdir.

Çavuşoğlunun dediyinə görə, Niderlandın xarici işlər naziri ilə görüş səmərəli olmuşdur. "Blok gələn ayın əvvəlində Türkiyəyə səfər edəcək" deyə nazir bildirmişdir.

### BMT ABŞ-ın UNRWA ilə bağlı mövqeyindən məyusdur

BMT rəhbərliyi ABŞ-ın təşkilatın işlərin təşkili və fələstinli qaçqınlara yardım üçün Yaxın Şərq agentliyinin (UNRWA) büdcəsinə köçürülmələrin tamamilə dayandırılması qərarı ilə bağlı təəssüfünü bildirmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.



BMT Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrikin dediyinə görə, təşkilatın adı çəkilən strukturu regionda sabitliyin təminatı üçün əhəmiyyətli töhfə verir. O, əvvəlki illərdə UNRWA-ya göstərilən dəstəyə görə ABŞ-a minnətdarlıq etmiş və bildirmişdir ki, BMT-nin Baş katibi Antoniu Quterreş Yaxın Şərq agentliyinin səfirlərinə hərtərəfli etibar edir.

UNRWA-nın baş direktoru Pyer Krenbül yaranmış maliyyə vəziyyətindən çıxış üzrə fəal səylər barədə danışmışdır. O bildirmişdir ki, agentlik donorların sayının artmasına nail olmuşdur. Bu səbəbdən köçürülmələrin həcmi artmışdır.

### Qondarma respublikanın başçısı həlak oldu

Qondarma Donetsk Xalq Respublikasının başçısı Aleksandr Zaxarçenko Donetsk şəhərinin mərkəzində baş vermiş terror aktı nəticəsində həlak olmuşdur. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.



Məlumata görə, Zaxarçenko "Separ" kafesində partlayış zamanı ölümcül yaralanmışdır. Onunla yanaşı, şəxsi cangüdəni də həlak olmuşdur. 12 nəfərin yaralandığı bildirilir. "RİA Novosti" agentliyinin xəbərinə görə, yaralılar arasında "DXR"in gəlirlər və vergilər naziri Aleksandr Timofeyev və "Donbasın dayağı" təşkilatının gənclər qanadının rəhbəri Natalya Volkova var.

### Avropa Komissiyası yay və qış vaxtlarına keçidi ləğv edir



Avropa Komissiyasının başçısı Jan-Klod Yunker bildirmişdir ki, Avropa İttifaqı (Aİ) saatların yay və qış vaxtına keçidini ləğv etməyi planlaşdırır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Yunker bununla bağlı Almaniyanın ZD telekanalına müsahibəsində demişdir: "Avropalı vətəndaşların tələblərini nəzərə alaraq Aİ hakimiyyət orqanları qış vaxtına keçidi ləğv etmək niyyətindədir. Avropa Komissiyasının keçirdiyi ictimai rəy sorğusu göstərmişdir ki, respondentlərin 84 faizi saatların qış və yay vaxtına keçirilməsindən imtina etməyi zəruri hesab edir. Sorğuda 4,6 milyon avropalı iştirak etmişdir".

Avropa Komissiyasının başçısı əlavə etmişdir ki, respondentlərin əksəriyyəti il boyu yay vaxtının olmasını istəmişdir. "Yəqin ki, belə də olacaq. İnsanlar istəyirsə, biz bunu edəcəyik" - deyə Yunker vurğulamışdır.

### Almaniyada neft emalı zavodunda partlayış və yanğın baş verdi



Dünən Almaniyanın Bavariya regionunda Foburq şəhərindəki "Bayernoil" neft emalı zavodunda güclü partlayış və yanğın baş vermişdir. Nəticədə 8 nəfər xəsarət almış, Foburq və yaxınlıqdakı İrşinq şəhərlərinin sakinləri güclü hisləndirməyə görə evlərini tərk etmək məcburiyyətində qalmışdır. Yerli KİV-in xəbərinə görə, 4 minə yaxın adam təxliyə edilmişdir.

Bavariya polisinin verdiyi məlumata görə, hadisə yerində 300-ə yaxın xilasedici işləyir. Yaralılardan 3-nün vəziyyəti ağırdır. Bu barədə DPA agentliyi xəbər verir.

Məlumata görə, zavodun ərazisində partlayış dünən səhər baş vermişdir. Bundan sonra ərazidəki qaz elektrik stansiyasının maye qaz və benzin anqarında yanğın başlamışdır. Partlayışın səbəbi hələ ki, məlum deyil.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il sentyabrın 1-dək 93 milyon 412 min 236,19 manat, 213 min 577,88 ABŞ dolları, 12 min 436 avro və 5 min rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə təsis edilib. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.



Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Tovuz rayonunda elektrik enerjisinin verilişində keyfiyyət artırılır

"Azərişıq" ASC ölkə üzrə bütün abonentlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təminatında yüksək nəticələr qazanmaqda davam edir. İstismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurularaq texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 2018-ci ilin səkkiz ayında qərb regionunda irimiqyaslı yenidənqurma işləri həyata keçirilib və hazırda davam etdirilir.



Tovuz rayonunda da elektrik enerjisinin verilişində köklü dəyişikliklərə nail olunub. Bu ilin səkkiz ayı ərzində görülən işlər sırasında 8 km uzunluğunda olan 6 kv-luq "Aqropark" hava xətti də var. Tam tikilib istifadəyə verilən bu xətt vasitəsi ilə kənd təsərrüfatı məhsullarının istehsalı üçün münbit şərait yaradılıb. Uzunluğu 5.74 km olan "Ağdam" hava xəttində isə dayaqlar tam dəyişdirilmiş, bəzi yerlərdə 10 kv-luq dayaqlar da quraşdırılmışdır. Rayonun Hunanlar kəndində 3 ədəd, Sarıtala və Qaraboyunlar kəndlərində isə 2 ədəd KTM quraşdırılmış, ötürücü dayaqlar dəyişdirilmiş və SİP kabelləşmə işi aparılmışdır. Qovlar qəsəbəsində yeni transformator quraşdırılmış, Ağdam kəndində yenidənqurma işləri davam etdirilir. Artıq kənddə bir KTM quraşdırılmış, 88 ədəd dayaq basdırılmış və 1680 metr məsafədə SİP kabelləşmə işi başa çatdırılmışdır. Cəbhəyanı olan bu kənddə hazırda yenidənqurma işləri davam etdirilir. 810 abonentin mövcud olduğu Əlimərdanlı kəndində isə 9 ədəd KTM quraşdırılmışdır. Özünüdaşıyan naqillər üçün 1219 ədəd dayaq yeniləri ilə əvəzlənmişdir. 35765 metr məsafədə kabelləşmə işi aparılmışdır. Hazırda Əlimərdanlı kəndində son tamamlama işləri aparılır. Tovuz rayonu elektrik şəbəkəsi tərəfindən sayğaclaşma işlərində də böyük nailiyyətlər əldə olunub. Rayondakı abonentlərin əksəriyyəti yeni dövr elektrik sayğacları ilə təmin ediliblər.

Hazırda Tovuz rayonunda 0,4 kV-luq elektrik şəbəkələrinin ÖİN kabellərlə əvəzlənməsi işləri davam etdirilir, yeni avadanlıqlar (dayaqlar, SİP kabellər, KTM-lər və s.) qurlaşdırılır, sayğaclar dəyişdirilir.

*"Azərbaycan"*

### Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Aşağı Əskipara kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


### BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 14.08.2018-ci il tarixində "Azərişıq" ASC-yə məxsus binaların cari təmiri üzrə işlərin satın alınmasına dair elan edilmiş açıq tender layihədə baş vermiş dəyişikliklər səbəbindən təxirə salınır.

*Tender komissiyası*


### Həftə sonu ölkə ərazisində 36 dərəcə isti olacağı gözlənilir

Ölkə ərazisində sentyabrın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24°, gündüz 27-31° isti, Bakıda gecə 21-23°, gündüz 30-32° isti olacaq.

Atmosfer təzyiqi norma daxilində - 761 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz təşkil edəcək.

Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun hərarətinin 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda isə 25-26° isti olacağı gözlənilir. Çimərliklərdə şimal-şərq küləyi əsəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq, şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək.

Havanın temperaturunun gecə 17-22°, gündüz 31-36° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.

Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25° isti olacağı bildirilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir.

Havanın temperaturunun gecə 16-21°, gündüz 28-33° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir.

Havanın temperaturu gecə 15-20°, gündüz 25-30° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq.

Havanın temperaturunun gecə 19-22°, gündüz 28-33° isti, dağlarda gecə 11-16°, gündüz 21-26° isti olacağı bildirilir.

Bölgələrdə şərq küləyi əsəcək.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8635
Sifariş 2491